**Hilallı E.N.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.75.250-256**
**UOT: 342.71**

# Azərbaycan Respublikasının qanunvericiliyində vətəndaşlıq institutunun formalaşması və inkişafı

**Xülasə:** Vətəndaşlıq institutu son dərəcə mühüm əhəmiyyət kəsb edir, çünki həm siyasi, həm də hüquqi baxımdan zəruridir. Dünyanın müxtəlif ölkələrinə, cəmiyyətlərinə, mədəniyyətlərinə diqqət yetirdikdə, vətəndaşlığa verilən müxtəlif anlayışların və yanaşmaların şahidi oluruq. Vətəndaşlıq anlayışının təriflərinin çoxluğu, öyrənilməsinə müxtəlif yanaşmaların mövcudluğu məzmunundakı davamlı dəyişikliklərlə də izah olunur.Vətəndaşlığın məzmunu və orada baş verən proseslər dövlətin inkişafının konkret tarixi şərtlərinin təsiri altındadır.

Azərbaycan vətəndaşlığı anlayışı ilk dəfə Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu ildə yaranıb. Azərbaycan Xalq Cümhuriyyəti vətəndaşlığı haqqında əsasnamə 23 avqust 1918-ci ildə ADR  tərəfindən qəbul edildi. Azərbaycanda vətəndaşlıq inistitutunun inkişafı dövlət müstəqilliyin bərpa edilməsindən sonra sistemli şəkildə davam etdirilmişdir. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilmiş “Azərbaycan Respublikası vətəndaşlığı haqqında” Azərbaycan Respublikası Qanunu vətəndaşlıq hüquq münasibətlərini tənzimləyən milli qanunvericiliyin formalaşmasında müstəsna rol oynamışdır.

**Açar sözlər:** vətəndaşlıq; vətəndaşlıq haqqında qanun; vətəndaşlığın inkişafı; vətəndaşlıq siyasəti; konstitusiya; xarici vətəndaş; vətəndaşlığı olmayan şəxs.

**Azərbaycan Respublikasının vətəndaşlığının anlayışı.** Vətəndaşlıq institutu ilk dəfə Qədim Yunanıstanda meydana gəlmişdir. Qədim Yunanıstanda vətəndaşlar dövlətin işlərində iştirak etmək hüququ olan şəxslər idi. Vətəndaşlıq hüquq institutundan bəhs etməzdən əvvəl, “vətəndaş” və “təbəə” terminlərinə diqqət yetirək. Hüquq nəzəriyyəsində “vətəndaş” və “təbəə” terminləri bir çox hallarda sinonim  söz kimi işlədilir.  Lakin bu terminlər arasında müəyyən fərqlər mövcuddur. Vətəndaşlıq hüquq münasibətinin subyetləri vətəndaş və dövlətdir.Vətəndaş hüquqlara malik olduğu kimi eyni zamanda dövlət qarşısında müəyyən vəzifələr daşıyır. Təbəə isə dövlət qarşısında vəziflər daşıyır, hüquqlara malik olmur.Bu baxımdan yanaşsaq, təbbə termini daha çox monarxiya idarəetmə formasına xass olan anlayışdır.

Vətəndaşlıq institutu son dərəcə mühüm əhəmiyyət kəsb edir, çünki həm siyasi, həm də hüquqi baxımdan zəruridir. Vətəndaşlıq dövlət ərazisində şəxsin hüquqi statusunun əsaslarının strukturunu və məzmununu müəyyən edən mühüm hüquqi kateqoriyadır. Məhz vətəndaşlıq fərdlə dövlət arasında məkan baxımından sabit və zaman baxımından davamlı hüquqi əlaqənin yaranmasına, onların qarşılıqlı ictimai hüquq və vəzifələrinin məcmusunu bərqərar etməyə kömək edir [5, s. 54-57].

Vətəndaşlığın konseptual aparatı müxtəlif elmi yanaşmalarla zəngindir.Azərbaycan  dövlət hüququnda bu anlayışın terminoloji xüsusiyyətlərinə dair fikirlərin inkişafı bir sıra hüquqşünas

♦ **Hilallı Elməddin Nüsrət oğlu** – “Hüquqşünaslıq” ixtisası və “Dövlət hüququ” ixtisaslaşması üzrə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi İdarəetmə Fakültəsinin magistrantı (Azərbaycan). E-mail: elmeddinh005@gmail.com

alimlərin tədqiqatının predmeti olmuşdur. Ziyafət Əsgərov, Elşad Nəsirov, Ceyhun Qaracayev, Əmir Əliyevin bu mövzuyla bağlı müxtəlif araşdırmaları mövcuddur.

Konstitusiya hüququ elmində vətəndaşlıq dedikdə - bir insanın dövlətlə hüquqi əlaqəsi başa düşülür, buna görə həm dövlət daxilində, həm də hüdudlarından kənarda suveren dövlət hakimiyyəti bir şəxsə şamil olunur. Dövlət, vətəndaş dövlət xaricində olsa da, vətəndaşdan vəzifələrini yerinə yetirməsini tələb edə bilər. Eyni zamanda, dövlət öz vətəndaşlarını harada olursa-olsun qorumalı, onlara yardım və himayə etməlidir [6, s. 72].

Vətəndaşlıq hüquq institutunun yerinə konstitusion müstəvidə diqqət yetirsək, Azərbaycan Respublikası Konstitusiyasının 1-ci maddəsində hakimiyyətin mənbəyindən bəhs olunur. Həmin maddənin ikinci hissəsində qeyd olunur, "Azərbaycan xalqı Azərbaycan Respublikası ərazisində və ondan kənarda yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir" [1].

Azərbaycan Respublikası Konstitusiyasının 52-ci maddəsində definitiv norma müəyyən olunub və həmin normada vətəndaşlığa anlayış verilir. "Azərbaycan dövlətinə mənsub olan, onunla siyasi və hüquqi bağlılığı, habelə qarşılıqlı hüquq və vəzifələri olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Azərbaycan Respublikasının ərazisində və ya Azərbaycan Respublikasının vətəndaşlarından doğulmuş şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Valideynlərindən biri Azərbaycan Respublikasının vətəndaşı olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır" [1]. Bu müddəada vətəndaşlığın əlamətləri müəyyən olunub.

Birinci əlamət- Azərbaycan dövlətinə mənsub olmaq. "Dövlətə mənsubiyyət" və "vətəndaşlıq" anlayışları nəzəriyyədə bəzən sinonim sözlər kimi işlədilir. Lakin bu anlayışlar arasında fərqlər mövcuddur. Belə ki, vətəndaşlıq bir qayda olaraq, "torpaq hüququ", yəni müəyyən ölkə ərazisində doğulma zamanı əmələ gəlir. Lakin vətəndaşlıq "torpaq hüququ" və ya digər bioloji xüsusiyyətlərlə şərtləndirilmir.

İkinci əlamət - dövlətlə siyasi və hüquqi cəhətdən bağlılıq. Siyasi bağlılıq əlaməti onu ifadə edir ki, vətəndaş dövlətlə siyasi münasibətlərə daxil olur, yəni o konstitusiyada təsbit olunmuş bəzi hüquqlarla dövlətin siyasi fəlaiyyətində iştirak edir. Azərbaycan Respublikası Konstitusiyasının 52-ci maddəsində vətəndaşların dövlətin siyasi həyatında və dövlətin idarə olunmasında iştirak etmək hüququ təsbit olunub. Bu hüquqların realizəsinin müəyyən bir hissəsi seçkilər vasitəsilə həyata keçirilir. Hüquqi bağlılıq onu ehtiva edir ki, vətəndaşlar Azərbaycan Respublikası qanunlarına tabedir. Qanunvericiliklə nəzərdə tutuluş hüquqlara malikdir və vəzifələr daşıyırlar. Eyni zamanda vəzifələrin pozulması və yerinə yetirilməməsinə görə qanunvericiliklə müəyyən edilmiş məsuliyyət daşıyırlar.

Üçüncü əlamət - qarşılıqlı hüquq və vəzifələrə malik olmaq.

Vətəndaşlığın daxili məzmununu əks etdirən vacib xüsusiyyətlərə aşağıdakılar daxildir:

- əlaqənin sabitliyi;
- vətəndaş və dövlət arasında hüquqi əlaqənin olması;
- qarşılıqlı hüquq və vəzifələrin məcmusunda əlaqənin ifadəsi.

Vətəndaşlığın davamlılığı (sabitliyi) onun vacib xüsusiyyətlərindən biridir, yəni vətəndaşlıq daim mövcuddur və müxtəlif xarici amillərin birbaşa təsirinə məruz qalmır. Bu, bir insanın və dövlətin xüsusi "şəxsi əlaqəsi", onun məzmununu təşkil edən hüquq və vəzifələrin sabitliyi ilə əlaqədardır. Vətəndaşlığın davamlılığı məkan və zamandadır. Birincisi, şəxsin yerləşdiyi yerdən asılı olmayaraq - vətəndaşlıq dövlətinin ərazisində və ya onun hüdudlarından kənarda - hər iki halda qarşılıqlı hüquq və vəzifələri var. Əlbəttə ki, dövlətdən kənarda olmaq çox vaxt vətəndaşın

müəyyən hüquq və vəzifələrinin həyata keçirilməsinin dayandırılmasına gətirib çıxarır, lakin onların fəaliyyəti dayanmır. Onlar bu vətəndaşlığın məzmununun tərkib hissəsi olmağa davam edir və vətəndaş mənsub olduğu dövlətə qayıtdıqda hüquq və vəzifələr tam həcmdə bərpa olunur.

Dövlətin müxtəlif hüquqi əlaqələri onun ərazisində olan xarici vətəndaşlar və vətəndaşlığı olmayan şəxslərlə də yarana bilər. Ancaq öz vətəndaşlarından fərqli olaraq, xarici vətəndaşlar və vətəndaşlığı olmayan şəxslərlə hüquqi əlaqə yalnız dövlətin ərazisində olduğu zaman baş verir və tərk etdiyi andan dayandırılır, yəni faktiki, keçid xarakterlidir.

Vətəndaşlıq, vətəndaşlarla dövlət arasındakı hüquqi əlaqə olaraq, dövlətin ərazi-məkan sərhədləri ilə əlaqələndirilmir, yəni universal, hərtərəfli və xüsusi bir xarakter daşıyır. Vətəndaşlığın növbəti vacib xüsusiyyəti bir vətəndaşın və dövlətin qarşılıqlı hüquq və vəzifələrinin məcmusunun olmasıdır. Vətəndaşlıqla əlaqəli münasibətlərin məzmunu ümumbəşəri dəyərlərin prioritetinin tanınmasından irəli gəlir, bir insanın və dövlətin qarşılıqlı məsuliyyət daşıyan bərabər və bərabər əlaqəli subyektlər tərəfindən tanınması deməkdir. Eyni zamanda, bir şəxsə bir sıra hüquq və vəzifələr verilir və dövlət hüquqi qorunma təmin etmək öhdəliyini götürür.

Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş müddəaya əsasən, vətəndaşlıq hüququ insanın təbii və ayrılmaz hüquqlarından biridir. Konstitusiyada Azərbaycan Respublikası vətəndaşının öz vətəndaşlığından və ya onu dəyişdirmək hüququndan məhrum edilə bilməyəcəyi müəyyən edilib.

Vətəndaşlığın təminatı Konstitusiyanın 53-cü maddəsində öz əksini tapmışdır. Qeyd etmək lazımdır ki, Azərbaycan qanunvericiliyi vətəndaşlıqdan məhrum etmə institutunu tanımır. Azərbaycan Respublikasının vətəndaşı heç bir halda Azərbaycan Respublikasından qovula və ya xarici dövlətə verilə bilməz.Azərbaycan Respublikası onun ərazisindən kənarda müvəqqəti və daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarının hüquqi müdafiəsinə təminat verir və onlara hamilik edir. Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlikləri, konsulluqları, diplomatik nümayəndəlikləri və beynəlxalq təşkilatlar vasitəsilə vətəndaşların hüquqi müdafiəsi təmin olunur.

**Vətəndaşlıq haqqında Azərbaycan qanunvericiliyinin inkişafı.** Azərbaycan vətəndaşlığı anlayışı ilk dəfə Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu ildə yaranıb. Azərbaycan Xalq Cümhuriyyəti vətəndaşlığı haqqında əsasnamə 23 avqust 1918-ci ildə qəbul edildi və növbəti il qanun qəbul olunana qədər qüvvədə idi. Azərbaycan Xalq cümhuriyyəti vətəndaşlığı haqqında qanun 11 avqust 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti tərəfindən qəbul edilmişdir. Qanuna vətəndaşlığın müəyyənləşdirilməsi, verilməsi və itirilməsi qaydaları və normaları daxil idi. Qanunda Azərbaycan Xalq Cümhuriyyətinin vətəndaşlığını qəbul etmiş bütün insanların sədaqət andı içmələri lazım olduğu müvafiq bənd var idi. 11 avqust 1919-cu il tarixli "Azərbaycan Xalq Cümhuriyyəti vətəndaşlığı haqqında" qanun ilə Azərbaycan ərazisində daimi yaşayan bütün şəxslər və Azərbaycan vətəndaşlarından doğulmuş şəxslər üçün vahid vətəndaşlıq təsbit edilmişdir.

18 oktyabr 1991-ci tarixində "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul edildi. Dövlət müstəqilliyini bərpası ilə bağlı qəbul edilmiş tarixi sənəd vətəndaşlıq münasibətlərini tənzimləyən normaları da özündə əks etdirmişdir.

Konstitusiya aktının 17-ci maddəsinə əsasən, Azərbaycan Respublikası bütün vətəndaşların mənafelərinin qanuna əsasən uzlaşdırılmasının təmin edilməsi,vətəndaşlara yaşayış sahəsi və fərdi mənzil tikintisində köməklik göstərilməsi,vətəndaşların müxtəlif qəsdlərdən müdafiə edilməsi,həmçinin vətəndaşların sağlamlığının qorunması öhdəlikləri daşıyır.

Aktın 18-ci maddəsində “vahid vətəndaşlıq” prinsipi təsbit olunur. Vətəndaşlıq hüquq münasibətlərini subyektləri qarşılıqlı vəzifələr daşıyır, yəni dövlət vətəndaş qarşısında vətəndaş isə dövlət qarşısında qanunla müəyyən edilmiş vəzifələr daşıyır.

12 noyabr 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyasiyası qəbul olundu. Konstitusiyada geniş yer verilmiş əsas vətəndaş hüquq və azadlıqlardan biri də vətəndaşlıq hüququdur. Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan Respublikası vətəndaşlığına anlayış verir. Vətəndaşla dövlət arasında siyasi və hüquqi bağlılıq, həmçinin qarşılıqlı hüquq və vəzifələr olmalıdır. Konstitusiyada hansı kateqoriya şəxslər Azərbaycan vətəndaşlığı əldə edir və vətəndaşlığın əldə edilməsinin əsasları göstərilir. Həmçinin Konstitusiyanın 53-cü maddəsində vətəndaşlıq hüququnun dövlət müdafiəsindən bəhs olunur. Harada olmasından aslı olmayaraq, Azərbaycan Respublikası vətəndaşlarının hüquqi müdafiəsi tənim edilir.

Azərbaycan Respublikasının vətəndaşlığı haqqında qüvvədə olan qanun 30 sentyabr 1998-ci ildə ümummilli lider  Heydər Əliyev təşəbbüsü ilə  qəbul edilmişdir. Sonrakı illərdə (2005, 2008, 2014, 2015, 2017 və 2018) qanuna müvafiq dəyişikliklər edilməklə qanun daha da təkmilləşdirilmişdir.

Qanun Azərbaycan vətəndaşlığının hüquqi məzmununu, onun əldə edilməsi və xitam verilməsi əsaslarını və qaydalarını, vətəndaşlıq məsələlərinin həllində iştirak edən dövlət hakimiyyəti orqanlarının səlahiyyətlərini, vətəndaşlıq məsələlərinə dair qərarlardan, dövlət hakimiyyəti orqanlarının, vəzifəli və xidməti şəxslərin hərəkət və ya hərəkətsizliyindən şikayət vermə qaydasını müəyyən edir [2].

Qanun 5 bölmə və 26 maddədən ibarətdir. Birinci hissədə Ümumi müddəalar təsbit olunur. İkinci bölmədə Azərbaycan vətəndaşlığının alınması və bərpası ilə bağlı, Üçüncü bölmə Azərbaycan vətəndaşlığına xitam verilməsi şərtlərini müəyyənləşdirir. Valideynlərin vətəndaşlığını dəyişdikdə və övladlığa götürmə halında uşaqların vətəndaşlığı dördüncü hissədə tənzimlənir. Son hissədə vətəndaşlıq məsələləri ilə bağlı beynəlxalq hüquq standartlarının gücü araşdırılır. Qanunla Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq normalar arasında ziddiyyət olduqda, beynəlxalq normalara üstünlük verilir.

2013-cü il 1 avqust tarixində Miqrasiya məcəlləsi qüvvəyə minmiş və həmin məcəllənin təkmilləşdirilməsi istiqamətində bu günə qədər qanuna müvafiq dəyişikliklər edilmişdir.Miqrasiya məcəlləsinin qüvvəyə minməsi ilə “Vətəndaşlıq münasibətləri”ni tənzimləyən normaların təkmilləşdirilməsi və inkişafı prosesi davam etdirilmişdir.

Azərbaycan Respublikasının Miqrasiya məcəlləsi “Azərbaycan Respublikasında miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi,miqrasiya proseslərini və bu sahədə yaranan münasibətlərin tənzimlənməsini,habelə əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında hüquqi vəziyyəti ilə bağlı normaları müəyyənləşdirir.” [3].

Miqrasiya məcəlləsinin 3-cü fəsilində Azərbaycan Respublikası vətəndaşlarının ölkədən getməsi və ölkəyə  qayıtması hüquq,bu hüququn həyata keçirilməsi qaydası,həmçinin Azərbaycan Respublikası ərazisindən kənarada yaşayan vətəndaşların hüquqlarının Azərbayacan dövləti tərəfindən müdafiəsi ilə əlaqədar münasibətləri tənzimləyən normalar müəyyən edilmişdir.

Məcəllənin 9 və 10-cu fəsillərində müvafiq olaraq,əmək miqrasiyasının dövlət tərəfindən tənzimlənməsi,xarici ölkələrdə Azərbaycan Respublikası vətəndaşlarının əmək fəaliyyətinin tənzimlənməsi ilə əlaqədar normalar təsbit olunub.

Miqrasiya məcəlləsinin 95-ci maddəsinə əsasən xarici ölkə vətəndaşları,vətəndaşlığı olmayan şəxslər və Azərbaycan Respublikası vətəndaşları tərəfindən Miqrasiya qanunvericiliyinin tələblərinin pozulması qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

Bir qayda olaraq, vətəndaşlıq fərdin dövlətlə əlaqəsi şəklində müəyyən edilir, lakin eyni zamanda cəmiyyətin müəyyən bir vəziyyətini təmsil etdiyi aydındır. Buna görə vətəndaşlıq yalnız dövlət və hüquq institutu kimi deyil, həm də sosial-mədəni, mənəvi və psixoloji bir institut kimi qəbul edilməlidir. Vətəndaşlığın hüquqi təbiətinə hüquq institutu, hüquqi münasibətlər, hüquqi vəziyyət və subyektiv hüquq daxildir. Bir şəxsin hər hansı bir dövlətin vətəndaşı hesab edilməsi üçün vətəndaşlığın sənədli sübutu lazımdır [4, s. 45].

Beləliklə, vətəndaşlıq İnstitutunun prinsipləri ümumiyyətlə hüquq prinsiplərinin daha ümumi probleminin bir hissəsi kimi qəbul edilə bilər. Prinsiplər ictimai münasibətlərin bu sahəsini tənzimləyən hüquq normalarının vəhdətini və əsas inkişaf meyllərini xarakterizə edən əsas fikirlər, rəhbər prinsiplərdir. Cəmiyyətin inkişafının obyektiv qurulmuş qanunlarını əks etdirir, dövlət siyasətinin məzmunundan irəli gəlir və hüquq sahəsinin ümumiləşdirilmiş təsvirini ehtiva edir.

Ümumilikdə Azərbaycanda vətəndaşlıq institutunun inkişafı vətəndaşlığın əldə edilməsi və məhrum edilməsi prosesində qanunçuluğun və ədalətin təmin edilməsinə, habelə bu sahədə vətəndaşların hüquq və azadlıqlarının qorunmasına yönəmişdir.

Bu kontekstdə ədalətin təmin edilməsi və bütün vətəndaşların hüquqlarının müdafiəsi üçün bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi davam etdirilir.

## Biblioqrafiya


1. Azərbaycan Respublikasının Konstitusiyası. – Bakı: Qanun, 2016. - 48 s.
2. Azərbaycan Respublikasının vətəndaşlığı haqqında Azərbaycan Respublikasinin Qanunu. Bakı şəhəri, 30 sentyabr 1998-ci il, № 527-IQ [Elektron resurs]. URL: https://e-qanun.az/framework/3187
3. Azərbaycan Respublikasının Miqrasiya məcəlləsi. – Bakı: Qanun, 2022. – 160 s.
4. Cəfərov İ.M. Azərbaycan Respublikası konstitusiyasının şərhi. – Bakı: Hüquq Ədəbiyyatı nəşriyyatı, 2013. – 724 s.
5. Dəmirov A.H. Azərbaycan Respublikasının Konstitusiyasi və Hüququn Əsasları. Dərs vəsaiti. / A.H.Dəmirov, Ş.N. İsmayılov, Q.F. Hüseynov. - Bakı: Mütərcim, 2010. – 196 s.
6. Əsgərov Z.A. Konstitusiya hüququ. Dərslik. - Bakı: Bakı Universiteti Nəşriyyatı, 2011. – 760 s.

**Hilalli E.N.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.75.250-256**
**UDC: 342.71**

## Formation and development of the institution of citizenship in legislation of the Republic of Azerbaijan

**Abstract:** The institution of citizenship is extremely important because it is both politically and legally necessary. When we pay attention to different countries, societies, and cultures of the world, we witness different concepts and approaches to citizenship. The multiplicity of definitions of the concept of citizenship, the presence of different approaches to its study is also explained by the continuous changes in its content. The content of citizenship and the processes taking place in it are influenced by the specific historical conditions of the development of the state.

The concept of Azerbaijani citizenship was created for the first time in the year of the existence of the Azerbaijan Democratic Republic. The statute on the citizenship of the Azerbaijan Democratic Republic was adopted by the ADR government on August 23, 1918. The development of the citizenship institute in Azerbaijan was systematically continued after the restoration of state independence. The Law of the Republic of Azerbaijan "On Citizenship of the Republic of Azerbaijan", adopted at the initiative of the great leader Heydar Aliyev, played an exceptional role in the formation of the national legislation regulating citizenship legal relations.

**Keywords:** citizenship; citizenship law; development of citizenship; policy of citizenship; constitution; foreign citizen; stateless person.

### References

1. Constitution of the Republic of Azerbaijan. Baku, Ganun Publ., 2016, 48 p. (in Azerbaijani).

2. Law of the Republic of Azerbaijan On the citiziENship of the Republic of Azerbaijan dated on 30.09.1998. No. 527 IQ. Available at: https://e-qanun.az/framework/3187 (in Azerbaijani).

3. Migration Code of the republic of Azerbaijan. Baku, Ganun Publ., 2022, 160 p. (in Azerbaijani).

4. Jafarov I.M. Interpretation of the Constitution of the Republic of Azerbaijan. Baku, Hugug edebiyyati Publ., 2013, 724 p. (in Azerbaijani).

5. Demirov A.N. Constitution of the Republic of Azerbaijan and Fundamentals of Law . Teaching aid./ Ed. by A.H.Demirov, Sh.N. Ismayilov, G.F. Huseynov. Baku Muterejim Publ., 2010, 196 p. (in Azerbaijani).

6. Asgarov Z.A. Constitutional law. Textbook. Baku, Baku University Publ., 2011, 760 p. (in Azerbaijani).

♦ **Hilalli Elmeddin Nusret oglu** – Master's student specializing in "Jurisprudence" and specializing in "Public Law" of the Faculty of Political Management at the Academy of Public Administration under the President of the Republic of Azerbaijan. E-mail: elmeddinh005@gmail.com

**Хилалли Э.Н.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.75.250-256**
**УДК: 342.71**

## Становление и развитие института гражданства в законодательстве Азербайджанской Республики

**Аннотация:** Институт гражданства играет ключевую роль, как с политической, так и юридической точек зрения. При обращении к различным странам, обществам и культурам, мы видим разнообразие в понимании и подходах к гражданству. Это многообразие определений и подходов объясняется постоянными изменениями в содержании гражданства. Суть гражданства и его процессы сильно зависят от конкретных исторических условий развития государства. Понятие азербайджанского гражданства возникло в годы существования Азербайджанской Демократической Республики. Фундаментальный документ о гражданстве был принят правительством АДР 23 августа 1918 года. В Азербайджане развитие института гражданства продолжалось систематически после восстановления государственной независимости. Закон "О гражданстве Республики Азербайджан", инициированный великим лидером Гейдаром Алиевым, сыграл ключевую роль в формировании национального законодательства, регулирующего гражданские права и отношения.

**Ключевые слова:** гражданство; закон о гражданстве; развитие гражданственности; политика гражданства; конституция; иностранный гражданин; лицо без гражданства.

### Библиография

1. Конституция Азербайджанской Республики. – Баку: Ганун, 2016. – 48 с. (на азерб. яз.).
2. Закон Азербайджанской Республики О гражданстве Азербайджанской Республики № 527-IQ от 30.09.1998 г. [Электронный ресурс]. URL: https://e-qanun.az/framework/3187 (на азерб. яз.).
3. Миграционный Кодекс Азербайджанской Республики. – Баку: Ганун, 2022. – 160 с. (на азерб. яз.).
4. Джафаров И.М. Толкование Конституции Азербайджанской Республики. – Баку: Юридическая лит., 2013. – 724 с. (на азерб. яз.).
5. Дамиров А.Г. Конституция Азербайджанской Республики и основы права / А.Г. Дамиров, Ш.Н. Исмайлов, Г.Ф. Гусейнов. – Баку: изд-во Мутараджим, 2010. – 196 с. (на азерб. яз.).
6. Аскеров З.А. Конституционное право. Учебник. – Баку: изд-во Бакинского ун-та, 2011. – 760 с. (на азерб. яз.).

---

[♦] **Хилалли Эльмэддин Нюсрет оглы** – магистрант по специальности "Юриспруденция" и специализации "Государственное право" факультета Политического управления, Академия государственного управления при Президенте Азербайджанской Республики (Азербайджан). E-mail: elmeddinh005@gmail.com